## GÖRKƏMLİ ŞƏXSLƏR SÜLEYMAN RÜSTƏM HAQQINDA

Süleyman Rüstəm kimi insanlar nadir insanlardır. Belə insanlar Tanrının onlara verdiyi fitri istedadı fədakarlıqla xalqına, millətinə sədaqətlə birləşdirib belə zirvələrə qalxa biliblər. Biz Süleyman Rüstəm kimi böyük şairimizlə fəxr edirik və güman edirəm ki, gələcək nəsillər də Süleyman Rüstəmin xidmətlərini və onun yaradıcılığını heç vaxt unutmayacaqlar.

***Heydər ƏLİYEV,***
***Ümummilli Lider***

Səməd Vurğun Süleyman Rüstəmi Azərbaycan poeziyasının aparıcı nümayəndələrindən biri hesab edir, onun şeirlərində xalq ruhunun və vətən sevgisinin güclü olduğunu vurğulayırdı.

***Səməd Vurgun,***
***Xalq şairi***

Süleyman Rüstəm ürəyinin bütün odu ilə torpağa bağlıdır. Cənub mövzusunda yazdığı şeirlər ədəbiyyat tariximizin unudulmaz səhifələridir. O şeirlərdəki sərt lirizm, qılınc kimi kəskin pafos xalqın azadlığını hər şeydən yüksək tutan şairin ürək yanğısıdır.

***İlyas Əfəndiyev,***
***Xalq yazıçısı***

Süleyman Rüstəm qəzəllərinin çoxu mahiyyət etibarilə yeni qəzəllərdir. Bu yenilik onların forma və ifadə tərzinə aid deyil, bəlkə birinci növbədə bu qəzəllərin məzmununa aiddir.

***Rəsul Rza,***
***Xalq şairi***

Süleyman Rüstəm Sovet Azərbaycan poeziyasının banisi olmuşdur. Biz, Sovet Azərbaycanının bütün şairləri Süleyman Rüstəm yoldaşa borcluyuq.

***

Süleyman Rüstəmin yaradıcılığını ideya baxımından dolğun və ictimai mövqeyi aydın olan poeziya kimi dəyərləndirib. O, şairin sözə məsuliyyətlə yanaşmasını xüsusi qeyd edirdi.

***Mirzə İbrahimov,***
***Xalq yazıçısı***

Süleyman Rüstəmin poeziyasındakı səmimiliyi və vətənpərvərlik motivlərini yüksək qiymətləndirirdi və onu Azərbaycan ədəbiyyatında məktəb yaratmış sənətkarlardan biri sayırdı.

***Bəxtiyar Vahabzadə,***
***Xalq şairi***

Süleyman dramaturgiyası, Süleyman poeziyası ilə aşılandığı, vətəndaşlıq pafosu ilə qidalandığı üçün qiymətlidir. Onlar gerçək həyatın, sovet həqiqətinin düzgün inikasını verdiklərinə, həyatla bağlılığına, keçdiyimiz inkişaf mərhələləri ilə əlamətdar olduqlarına görə əhəmiyyətlidirlər.

***Mehdi Məmmədov,***
***Xalq artisti, professor***

Süleyman Rüstəmin poeziyasını Azərbaycan Sovet Sosialist Respublikasının müxtəsər, poetik ensiklopediyası adlandırsaq, əsla yanılmarıq.

***Bəkir Nəbiyev,***
***akademik, tənqidçi***

Süleyman Rüstəmin Azərbaycan poeziyasında xüsusi mövqeyə malik olduğunu, onun yaradıcılığının bir neçə nəsil üçün ədəbi məktəb rolunu oynadığını bildirmişdir.

***Anar,***
***Xalq yazıçısı***

Şairin yaradıcılığında realizm və romantik duyğuların sintezini qeyd etmiş, Süleyman Rüstəmin Azərbaycan poeziyasında özünəməxsus məktəb yaratdığını bildirmişdir.

***Məmməd Arif,***
***professor, ədəbiyyatşünas***

Şairin dramaturji və lirik yaradıcılığında həyatiliyin və sənətkarlığın vəhdət təşkil etdiyini qeyd etmişdir.

***Cəfər Cəfərov,***
***professor, tənqidçi***

S.Rüstəm ədəbiyyatımızda haqlı olaraq aydın həqiqətlər, böyük və müdrik fəlsəfələr şairi kimi görkəmli və layiqli yer tutur. İllər keçəcək. İnsanlar yer üzünə nəsil-nəsil gəldikcə, S.Rüstəm poeziyasının büllur bulağından həmişə böyük minnətdarlıq duyğusu ilə içəcək, onun saflıq və təmizliyini qiymətli ərmağan kimi, Azərbaycan xalqının susmayan, əzəmətli könül nəğməsi kimi ürəklərdən-ürəklərə aparacaqdır.

***

Bu gün Süleyman Rüstəm aramızda yoxdur. Amma onun “Ana və poçtalyon” kimi şeirləri, “Qafurun qəlbi” kimi poemaları “Qaçaq Nəbi” kimi pyesi xalqın qəlbində yaşayır.

***Nəbi Xəzri,***
***Xalq şairi***

Müəllif onun poetik dilinin sadəliyini və təsir gücünü yüksək qiymətləndirmiş, Süleyman Rüstəmi geniş oxucu auditoriyasına yaxın şair kimi səciyyələndirmişdir.

***Qasım Qasımzadə,***
***filologiya elmləri doktoru, şair***

Xalqın ürəyinə, dərdinə yaxınlıq baxımından Süleyman Rüstəm poezsiyasının şeir tariximizdə əvəzsiz yeri var.

***

Qədim tarixi olan bir poeziyada öz yolu, üslubu ilə seçilən bir şair olmaq asan deyil. Süleyman Rüstəm bir kökü ilə klassik yazılı şeirimizə, əruzun qaynaqlarına, bir kökü ilə də xalq yaradıcılığına, aşıq şeirinə, qoşmaya bağlamaqla, poeziyamızı bir sıra yeni poetik formalarla zənginləşdirmiş, ifadə xüsusiyyətlərinə görə özünəməxsus bir şeir üslubu yaratmışdır.

***Sabir Rüstəmxanlı,***
***Xalq şairi***

Süleyman Rüstəm sözsüz ki, XX əsr Azərbaycan ədəbiyyatının öndərlərindən biridir. O, poeziyamızı elə şedevr əsərlərlə zənginləşdirib ki, bu əsərlər çap edildiyi gündən bu çağa qədər neçə nəslin yaddaşında yaşayır. Bir anlığa fikirləşək ki, Süleyman Rüstəm olmasaydı XX əsr Azərbaycan poeziyasında hansı boşluqlar və çatlar yaranardı.

***Vaqif Yusifli,***
***filologiya elmləri doktoru, ədəbiyyatşünas***